**UOT 94(479.24)**

**GÜNEL CƏFƏROVA**
*Bakı Dövlət Universiteti*
*Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dissertantı*
**guneljafarova@gmail.com**

# 1960-1970-Cİ İLLƏRDƏ BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ AZƏRBAYCAN TARİXİ ELMİNİN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/139-143

*Məqalədə ötən əsrin 60-70-ci illərində Bakı Dövlət Universitetində Azərbaycan tarixinin öyrənilməsi məsələləri araşdırılır. Azərbaycan SSR Təhsil Nazirliyinin və Bakı Dövlət Universitetinin tədris prosesinin araşdırılmasından aydın olur ki, SSRİ Nazirlər Sovetinin 12 aprel 1956-cı il tarixli "Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin yaxşılaşdırılması vəziyyəti haqqında" qərarı Azərbaycan SSR-nin bütün ali təhsil müəssisələri, o cümlədən o zamankı Azərbaycan Dövlət Universitetində elmi-tədqiqat işlərinin vəziyyətini nizsbi də olsa yaxşlıaşdırmışdı. Bundan iki il sonra isə Azərbaycan KP MK bürosu 1 iyul 1958-ci ildə "Azərbaycan SSR-nin ali və orta məktəblərində Azərbaycan tarixinin tədrisi haqqında" yeddi bənddən ibarət ayrıca qərarı da bu istiqamətdə atılan müsbət addımlardan idi. Bütün bu qərarlar Azərbaycan SSR-nin ali təhsil müəssisələrində, eləcə də Azərbaycan Dövlət Universitetində vətən tarixinin dərindən öyrənilməsinə bir qədər olsa meyli gücləndirmişdi. Qeyd olunan bu kimi məsələlər məqalədə Azərbaycan Respublikası Dövlət Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin, eləcə də Bakı Dövlət Universiteti ilə bağlı yazılmış tarixi ədəbiyyat əsasında araşdırılaraq təhlil edilmişdir.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, Azərbaycan tarixi, ali təhsil, Azərbaycan SSR.

***Giriş***. Azərbaycanın qocaman ali təhsil ocağı olan Bakı Dövlət Universiteti Azərbaycan tarixinin öyrənilməsi istiqamətində sovet hakimiyyəti illərinin 60-70-ci illərində də digər ali məktəblərdən fərqlənirdi. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri isə Azərbaycan KP MK bürosu 1 iyul 1958-ci ildə "Azərbaycan SSR-nin ali və orta məktəblərində Azərbaycan tarixinin tədrisi haqqında" yeddi bənddən ibarət ayrıca qərarı oldu. Qərarın məzmunundan aydın olur ki, Azərbaycan SSR Maarif Nazirliyinə 1958-1959-cu tədris ilinin ikinci yarısından etibarən Azərbaycan tarixi 51 saat həcmində müstəqil fənn kimi respublika məktəblərinin 9-10-cu siniflərində tədris edilməsinə nəzarət etməsi tapşırılmışdı. Qərarın ikinci bəndi isə Azərbaycan SSR-nin görkəmli tarixçiləri, Ə.Sumbatzadə, İ.Hüseynov, Z.İbrahimovdan ibarət müəllif kollektivinə tapşırıqlar verilməsindən ibarət idi. Orada deyilirdi ki, 15 noyabr 1958-ci ilə qədər illüstrasiya və xəritələrlə birlikdə orta məktəblər üçün 12-15 çap vərəqi həcmində Azərbaycan tarixi üzrə dərs vəsaiti hazırlasınlar. Bundan başqa, Azərbaycan SSR Mədəniyyət və Maarif nazirlərinə də xüsusi göstəriş nəzərdə tutulmuşdu. Orada deyilirdi ki, 20 dekabr 1958-ci ilə kimi azərbaycan və rus dilində olan məktəblər üçün dərs vəsaitinin nəşrini başa çatdırılsın. Digər tərəfdən, qərarda ali və orta məktəblər üçün Azərbaycan tarixi proqramının tərtib edilməsi və 1960-cı ilə kimi Azərbaycan tarixi üzrə xəritələrin hazırlanıb çap edilməsi də nəzərdə tutulmuşdu. Qərarın göstərilən bu bəndi Akademiyanın Tarix İnstitutunun direktoru İ.Hüseynova, Maarif naziri M.Məmmədova və Azərbaycan Dövlət Universitetinin rektoru Ş.Mehdiyevə həvalə edilmişdi [2, v. 63].

Azərbaycan SSR KP MK-nin yuxarıda bəhs olunan qərarının digər bir bəndi isə Azərbaycan KP MK-nin nəşriyyatı ilə bağlı idi. Orada deyilirdi ki, 1958-ci il 1 noyabra kimi Azərbaycan tarixi üzrə orta məktəb proqramlarının Azərbaycan və rus dillərində nəşri başa çatdırsın [2, v. 63]. Məlumatlardan da aydın olduğu kimi, ötən əsrin 50-ci illərinin sonundan etibarən Azərbaycanın qocaman ali təhsil ocağı olan Bakı Dövlət Universitetində Azərbaycan tarixinin öyrənilməsinin nisbətən yaxşılaşdırılması istiqamətində əməli addımlar atıldı. Bütün bunlar 1953-cü ildə Stalinin ölümündən sonra daha qabarıq şəkildə üzə çıxdı. Belə ki, Azərbaycan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrası 1958-ci il martın 20-də SSRİ Təhsil Nazirliyinin 307 saylı əmri ilə bərpa olundu [4, s.127].

Bütün bu addımlar o zamankı Azərbaycan Dövlət Universitetində Azərbaycan tarixinə, Azərbaycan dilinə, mədəniyyətinə dair elmi tədqiqatların aparılması və vətən tarixinə dair yeni-yeni elmi tədqiqatların üzə çıxmasına şərait yaratdı.

Bu dövrdə Azərbaycan tarixinin qədim dövrünün üzə çıxarılması da aktual məsələlərdən biri kimi diqqət mərkəzində idi. Bu baxımdan Azərbaycan SSR-nin bir çox bölgələrinə arxeoloji ekspedisiyalar təşkil olundu. Bu sahədə Azərbaycan Dövlət Universiteti mühüm addımlar atdı, tarixçi-arxeoloqların bu istiqamətdə fəaliyyətini stimullaşdırdı, ekspedisiyaların təşkilinə yardımçı oldu. Azərbaycan tarixinin öyrənilməsində arxeoloji məlumatların üzə çıxarılması əvvəlki boşluqları qismən doldura bildi. Bununla bağlı olaraq hələ 1957-ci ilin aprel ayının 23-də Azərbaycan KP MK və respublika Nazirlər Soveti "Azərbaycan mədəniyyət abidələrinin mühafizəsi, bərpası və öyrənilməsi işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" qərar qəbul etdi [3, v. 62-66]. Qərardan aydın olur ki, Azərbaycan mədəniyyət abidələrinin mühafizəsi, aşkar edilməsi, bərpası və öyrənilməsi, tanldılması bərbad vəziyyətdədir. Bu məsələ ilə əlaqədar Azərbaycan SSR Nazirlər Soveti yanında memarlıq və tikinti işləri üzrə dövlət komitəsi, Elmlər Akademiyası və Mədəniyyət Nazirliyi Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin bir sıra qərarlarının həyata keçirilməsini təmin etməmişdir. İndiyə qədər dövlət tərəfindən qorunmalı olan bütün tarixi abidələrin siyahısının hazırlanması işi başa çatdırılmamışdır. Yalnız dövlət mühafizəsinə götürülmüş memarlıq abidələrinin siyahısı təsdiq edilmişdir. Yerli sovetlər tərəfindən mədəniyyət abidələrinin qorunmasına məsuliyyətsiz münasibət nəticəsində bu abidələrin dağıdılması kimi biabırçı hallar hələ qalmaqdadır. Mərəzə rayonunun Xımıllı kəndindəki karvansaray, Quba rayonunun Aqbil və Xaldan kəndlərindəki türbələr belə baxımsızlıq nəticəsində dağıdılmışdır. Son illərdə Elmlər Akademiyasının müəssisələrində tarixi abidələrin aşkar edilməsi və öyrənilməsi ilə bağlı ekspedisiya işləri zəifləmişdir [3, v. 62-66].

Aparılan araşdırmalardan o da məlum olur ki, bəhs olunan qərar Azərbaycan Dövlət Universitetində müsbət qarşılandı. Belə ki, qərara uyğun olaraq Azərbaycan mədəniyyət abidələri ilə bağlı Azərbaycan Dövlət Universitetində fakültətiv kursların keçirilməsi təşkil edildi. Bundan başqa, əhali, xüsusilə gənclər arasında mədəniyyət abidələrinin əhəmiyyəti haqqında izahat işlərinin genişləndirilməsi, mətbuat və radio verilişlərində mədəniyyət abidələrinin tanıdılması və onların mühafizəsinin təmin edilməsi məsələsinin işıqlandırılması, tikinti və təsərrüfat işləri zamanı arxeoloji nəzarətin gücləndirilməsi və tapılan tarixi-mədəniyyət əşyalarının muzey fondlarına verilməsi və sair məsələlər əks olunmuşdu [6, s. 329].

Ötən əsrin 60-cı illərinin əvvəllərindən etibarən Azərbaycan Dövlət Universiteti və onun görkəmli alimləri Azərbaycan tarixinin daş dövrünün öyrənilməsi ilə bağlı mühüm addımlar atdı. Bu baxımdan görkəmli arxeoloq-alim M.M.Hüseynovun xidmətləri xüsusilə qeyd edilməlidir [1, cild 1, s.30].

1960-cı ilin iyun-iyul aylarında M.M.Hüseynovun rəhbərlik etdiyi arxeoloji ekspedisiya Qarabağ ərazisində kəşfiyyat işlərinə başladı. Kəşfiyyat işləri Qarabağın Quruçay və Köndələnçay vadilərində və ona yaxın ərazilərdə aparıldı. Aparılan arxeoloji kəşfiyyat işləri zamanı Quruçayın sol sahilində Azıx və Tağlar düşərgələri qeydə alındı [1, cild 1, s.33].

Bu abidələr sırasında Qarabağın Füzulu rayonu ərazisində aşkar edilmiş Azıx mağarası xüsusilə əhəmiyyətli oldu. 1968-ci ilin iyun ayında M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin III layında daş məmulatı və heyvan sümükləri ilə yanaşı qədim insana məxsus alt çənə sümüyü aşkar etdi. Bu, Azərbaycanın bəşəriyyətin ən qədim insanların meydana çıxdığı ilk mədəniyyət ocaqlarından biri olduğunu təsdiq etdi [1, cild 1, s. 34].

1974-1975-ci illərdə Azıx düşərgəsində yeni müəyyən olunmuş VII-VIII-IX və X təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı mühüm elmi əhəmiyyətə malik maddi mədəniyyət nümunələri tapıldı [1, cild 1, s. 35]. Məlumatlardan aydın olduğu kimi Bakı Dövlət Universitetində ötən əsrin 60-cı illərindən başlayaraq vətən tarixinin öyrənilməsi istiqamətində mühüm işlər görülmüşdü. Vətən tarixinin öyrənilməsi həm nəzəri olaraq, yəni auditoriyalarında, dərs otaqlarında, kafedralarında Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi üçün çox mühüm işlər görülür, həm də arxeoloji baxımdan elmi-tədqiqat işləri dövriyyəyə gətirilirdi.

Lakin elmi-tədqiqat işləri yenə də dövrün siyasi prizmasından kənara çıxa bilmirdi. Belə ki, vətən tarixi ilə bağlı yazılan tədqiqat işləri daha çox sosializm quruculuğu, fəhlə-kəndli sinfi və bu kimi

mövzulara həsr olunmuşdu. Bunu Universitetin 1964-1965-ci illərə aid olan elmi hesabatından aydın şəkildə görmək olar. Elmi hesabatdan aydın olur ki, 1964-1965-ci tədris ilində Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində 3 kafedra var idi. Bunlar SSRİ tarixi, Azərbaycan tarixi və ümumi tarix kafedraları idi. Azərbaycan tarixi kafedrasında 17 müəllim heyəti var idi ki, bunun da 4 nəfəri professor, 4 nəfəri dosent, digərləri isə elmlər namizədi, baş müəllim idi. Bundan başqa, kafedra əməkdaşları içərisində kənardan cəlb olunmuş elmi işçilər də çalışırdı [8, v. 1-26].

Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin 1965-1966-cı tədris ilinin hesabatından aydın olur ki, Tarix fakültəsinin 4 kafedrası fəaliyyət göstərirdi ki, bunlar da SSRİ tarixi, Azərbaycan tarixi, Asiya və Afrika ölkələri tarixi və Ümumi tarix kafedraları idi. Elmi hesabatdan aydın olur ki, Azərbaycan tarixi kafedrası hesabat dövründə "Azərbaycan tarixi üzrə xronologiya" adlı dərslik hazırlayıb çap etdirmiş, eyni zamanda "1920-1937-ci illərdə Azərbaycanda aqrar münasibətlər", "Kommunist partiyasının aqrar proqramı" kimi mövzular üzərində tədqiqatlar aparmışdı [9, v. 1].

Azərbaycan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının bəhs olunan dövrə aid elmi hesabatından isə məlum olur ki, kafedranın dosenti Ş.Məmmədbəyli 1965-1966-cı tədris ilində "Azərbaycan tarixi üzrə xronologiya" adlı dərslik yazıb çap etdirmişdir [9, v. 31].

Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin 1967-ci il hesabatı da deyilənləri təsdiq edir. Hesabatdan aydın olur ki, fakültə elmi-tədqiqat işlərini əsasən Sov. İKP XXII qurultayının qərarları və partiyanın MK-nın müvafiq plenumunun qərarlarına uyğun aparmışdı. Tarix fakültəsinin 1967-ci ilə aid illik hesabatında yazılırdı: "Hesabat dövründə fakültədə 4 kafedra, SSRİ tarixi, Azərbaycan tarixi, ümumi tarixi, Asiya və Afrika ölkələri tarixi kafedraları fəaliyyət göstərmişdir." [7, v. 1].

Bundan başqa, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin 1967-ci il hesabatından o da məlum olur ki, Azərbaycan tarixinin öyrənilməsi ilə bağlı təkcə Azərbaycan tarixi kafedrası deyil, həmçinin SSRİ tarixi kafedrası da elmi-tədqiqat işləri aparırdı. Bu baxımdan SSRİ tarixi kafedrasının əməkdaşı Y.Səfərovun "XIX əsrin 20-30-cu illərində Azərbaycanda tarix elminin tarixi" adlı problem üzərində işi xüsusilə qeyd edilməlidir. Kafedranın digər əməkdaşı dosent A.Atakişiyev isə "Kommunizm quruculuğu dövründə Azərbaycanda mədəniyyətin inkişafı" adlı doktorluq dissertasiyası üzərində tədqiqatlarını davam etdirmişdir. Bundan başqa, kafedranın əməkdaşı A.Ağayeva hesabat dövründə "Azərbaycanın şəhər sovetləri sosializm quruculuğunda (1920-1940-cı illər) adlı" doktorluq dissertasiyası üzrə 20 çap vərəqi həcmində arxiv sənədləri toplamışdır [7, v. 3].

Bununla belə, ötən əsrin 60-cı illərdən başlayaraq Azərbaycan tarix elminin öyrənilməsi, tədqiqi və təbliğində görkəmli tarixçilər köhnə konyukturadan kənara çıxmağa çalışırdılar. Bunlar içərisində tarixçi-alim S.Əliyarlı xüsusilə seçilirdi. Bunu Azərbaycan tarixi kafedrasının 1967-ci il hesabatından aydın şəkildə görmək olara. "Bakı proletariatı birinci dünya müharibəsi illərində (1914-1918-ci illər)" adlı mövzu üzərində işləyən S.Əliyarlı tədqiqat işində müvəqqəti hökumətin Azərbaycanda iqtisadiyyatın mühüm sahələri üzrə yürütdüyü siyasəti, aparılan islahatların sinfi xarakteri, yerli burjuaziyanın mövqeyi və rolu kimi məsələlərini təhlil etmişdir [7, v. 4].

***Nəticə***. Beləliklə, aparılan araşdırmalardan aydın olur ki, Azərbaycanın ilk ali təhsil ocağı olan Bakı Dövlət Universiteti sovet hakimiyyətinin 60-70-ci illərində də Azərbaycan tarixinin öyrənilməsinə xüsusi əhəmiyyət verirdi. Bunu Bakı Dövlət Azərbaycan SSR KP MK bürosunun, Azərbaycan SSR Maarif Nazirliyinin qərarlarından irəli gələrək o zamankı Azərbaycan Dövlət Universitetində həyata keçirilən tədbirlər, elmi hesabatlar, eləcə də Tarix fakültəsinin elmi hesabatlarından da aydın şəkildə görmək mümkündür.

## ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası: 6 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2008.
2. Azərbaycan tarixinin Azərbaycan SSR-nin məktəblərində və ali təhsil müəssisələrində tədris edilməsi haqqında Azərbaycan KP MK Bürosunun qərarı. 01.07.1958. // ARPİİSSA, f. 1, siy. 45, sax. vah. 112, v. 63.
3. Azərbaycan mədəniyyət abidələrinin mühafizəsi, bərpası və öyrənilməsi işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan KP MK və Nazirlər Sovetinin qərarı. 23.04. 1957. // ARPİİSSA, f. 1, siy. 44, sax. vah. 67, v. 62-66.
4. Bakı Dövlət Universiteti-100 ilin elm və təhsil məbədi. Bakı: Nurlar, 2019.

5. Əmrahov Z., İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Elm və təhsil, 2019.
6. Həsənli C. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı: Adiloğlu, 2008.
7. Годовой отчет о работе исторического факультета Аз госуниверситета за 1967 уч. г. // ARDA, f. 1640, siy. 1, sax. vah. 599, v. 1, v. 4.
8. Отчет о работе исторического факультета Аз госуниверситета за 1964-1965 уч. г. // ARDA, f. 1640, siy. 1, sax. vah. 534, v. 1-26.
9. Отчет о работе исторического факультета Аз госуниверситета за 1965-1966 уч. г. // ARDA, f. 1640, siy. 1, sax. vah. 563, v. 1.

**ГЮНЕЛЬ ДЖАФАРОВА**
*Докторант кафедры истории Азербайджана (для гуманитарных наук)*
*Бакинского государственного университета*

## ВОПРОСЫ ИЗУЧЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В БАКИНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ В 1960-1970-Е ГОДЫ

В статье рассматриваются вопросы изучения истории Азербайджана в Бакинском государственном университете в 60-70-е годы прошлого века. Из изучения учебного процесса Министерства просвещения Азербайджанской ССР и Бакинского государственного университета становится ясно, что постановление Совета Министров СССР от 12 апреля 1956 года «Об улучшении состояния научно-исследовательской работы в высших учебных заведениях» улучшило состояние научно-исследовательской работы во всех высших учебных заведениях Азербайджанской ССР, в том числе и в тогдашнем Азербайджанском государственном университете, хотя и относительно. Спустя два года отдельное постановление Центрального Комитета Коммунистической партии Азербайджана от 1 июля 1958 года, состоящее из семи пунктов, «О преподавании истории Азербайджана в высших и средних учебных заведениях Азербайджанской ССР» также стало положительным шагом в этом направлении. Все эти решения несколько усилили тенденцию к углубленному изучению истории родины в высших учебных заведениях Азербайджанской ССР, а также в Азербайджанском государственном университете. Вышеуказанные вопросы исследованы и проанализированы в статье на основе архивов Государственного архива Азербайджанской Республики, Архива политических документов Управления делами Президента Азербайджанской Республики, а также исторической литературы, написанной о Бакинском государственном университете.

*Ключевые слова:* Бакинский Государственный Университет, история Азербайджана, высшее образование, Азербайджанская ССР.

**GUNEL JAFAROVA**
*PhD student at the Department of Azerbaijani History (for the Humanities)*
*of Baku State University*

## ISSUES OF STUDYING AZERBAIJANI HISTORY AT BAKU STATE UNIVERSITY IN THE 1960S-1970S

The article examines the issues of studying the history of Azerbaijan at Baku State University in the 60s-70s of the last century. From the study of the educational process of the Ministry of Education of the Azerbaijan SSR and Baku State University, it becomes clear that the decision of the USSR Council of Ministers dated April 12, 1956 “On the improvement of the state of scientific and research work in higher educational institutions” improved the state of scientific and research work in all higher educational institutions of the Azerbaijan SSR, including the then Azerbaijan State University, albeit relatively. Two years later, the separate decision of the Central Committee of the Communist Party of Azerbaijan on July 1, 1958, consisting of seven points, “On the teaching of the history of Azerbaijan

in higher and secondary schools of the Azerbaijan SSR" was also a positive step in this direction. All these decisions somewhat strengthened the tendency to in-depth study of the history of the homeland in higher educational institutions of the Azerbaijan SSR, as well as in Azerbaijan State University. The aforementioned issues have been researched and analyzed in the article based on the archives of the State Archives of the Republic of Azerbaijan, the Political Documents Archive of the Presidential Affairs Office of the Republic of Azerbaijan, as well as historical literature written about Baku State University.

*Keywords:* Baku State University, history of Azerbaijan, higher education, Azerbaijan SSR.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 mart 2025-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.*
*Rəyçilər: t.e.d.İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.*